

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 180 (24.317)

30 sentyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

Qiyməti 30 qəpik

## Milli Şəhərsalma Forumu – dostluğun yeni təzahürü

### Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib




Sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən “Şəhərsalma Həftəsi 2023” tədbirləri çərçivəsində Zəngilanda “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– BMT-nin Məskunlaşma Proqramının hörmətli icraçı direktoru.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Zəngilana xoş gəlmisiniz. Sizi burada – Azərbaycanın qədim bölgəsində, Şərqi Zəngəzurda salamlayıram. Bu gün bu region Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir.

İlk olaraq bütün qonaqlarımıza təşəkkürümüzü bildiririrəm. Bu gün burada 53 ölkədən qonağımız var. 200-ə yaxın xarici qonaq və ümumilikdə, 400 iştirakçı bu gün bizimlədir. Bu bizim ikinci Azərbaycan Milli Şəhərsalma Forumumuzdur, bizim dostluğumuzun təzahürüdür. Bizim birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək.

Xüsusi olaraq xanım icraçı direktora təşəkkür etmək istəyirəm ki, bizim təşəbbüsləri daim dəstəkləyib, şəhərsalma ilə bağlı dəyərli tövsiyələrini verib və verir. Biz sıfırdan yeni şəhər və kəndlər inşa edirik. Ona görə də burada müasir texnologiyalar tətbiq etməliyik ki, bununla da keçmiş köçkünlərimizə ən yaxşı şərait yaradaq. Onların bir hissəsi artıq qayıdıbdır.

Ötən il biz birinci Şəhərsalma Forumunu Ağdam şəhərində keçirmişdik. Həmin şəhər də sıfırdan inşa edilir, çünki o, işğal dövründə darmadağın edilmişdir.

Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsidir ki, artıq burada keçmiş məcburi köçkünlər evlərinə qayıdıb. Ağalı “ağıllı kənd”inə, – burada videoda da siz onu gördünüz, – ötən bahar aylarında həyat qayıdıb. Orada sakinlər xoşbəxt yaşayırlar. Mən Ağalı kəndində dəfələrlə olmuşam – sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, bizim torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar bu imkandan 30 il şərində Ermənistan tərəfindən məhrum edilmişdi. Ancaq üç il əvvəl biz bu işğala son qoyduq.

Bu gün Zəngilan beynəlxalq tədbirə ev sahibliyi edir. Bu, yenidən inşa edilmiş Konqres Mərkəzi dünən açılıb. Təkcə bu bina deyil, Zəngilanın müxtəlif istiqamətlərində fəal işlər gedir. Dediyim kimi, ilk “ağıllı kənd” Zəngilan rayonunda yerləşir. Bu şəhərin Baş planı artıq təsdiq edilib. Biz infrastruktura böyük vəsait ayırmışıq, bir neçə yaşayış layihəsi icra edilməkdədir. 2025-ci ildə, ola bilər bir az da tez, Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar.

Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə, əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bu, turistlər tərəfindən ən çox sevilən bölgə olacaq.

Zəngilan Beynəlxalq Hava Limanı azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanıdır. Üçüncüsü isə hazırda Laçında inşa edilir və iki il ərzində o hava limanı da istifadəyə veriləcək.

Eyni zamanda biz sovet dövründə mövcud olan dəmir yolu xəttini bərpa edirik. Çünki işğal dövründə bizim dəmir yolları Ermənistan qüvvələri tərəfindən sökülüb. Bu gün Horadizdən Zəngilana çəkilən dəmir yolunun inşası fəal fazadadır və tezliklə bu nəqliyyat dəhlizinin bir mühüm hissəsi hazır olacaq. Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət, Avropaya çatacaq. Tezliklə biz bu layihəni istifadəyə verəcəyik. Yəni Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq. Dəmir yolu xətləri, hava limanı – bu gün bu istiqamətdə altı və dördzolaqlı avtomagistrallar inşa edilir. Paytaxt Bakıdan bütün bu istiqamətlərdə 2000 kilometrdən çox yeni magistral yollar inşa olunur. Yəni bu, irihəcmli tikinti layihələridir və azad olunmuş hər bir rayon xüsusi Baş plana malikdir.

Biz Zəngilanda təkcə pilot yaşayış layihəsi deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçiririk. “Dost Aqropark” adlanan bu layihə Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir. Hesab edirəm ki, Zəngilan gələcəkdə Azərbaycanın qida təhlükəsizliyinə töhfə verəcək. Artıq 6000 baş anqus cinsindən olan qaramal idxal edilib, onların sayı 10 minə çatdırılacaq. Burada, Laçın və Kəlbəcərdə də böyük yaşıllıq ərazilər var və hər zaman, keçmişdə də bu ərazidə maldarlıq inkişaf etmişdir. Ona görə də burada bu potensial var.

Eyni zamanda yeni iş yerləri yaradılır, çünki buraya – evlərinə, Vətəninə qayıdan insanlar işlə təmin edilməlidir. Bizim Böyük Qayıdış Proqramımızın bir tərkib hissəsi də məşğulluqdur, eyni zamanda aşağı faizli, imtiyazlı kreditlərin verilməsi və təbii ki, sosial infrastrukturun inşası. Zəngilanda artıq böyük bir məktəb binası inşa edilməkdədir. Zəngilan məscidinin inşası yekunlaşır. O, ermənilər tərəfindən məhv edilən qədim məscidin yanında inşa edilib. Bizim işğal altında olmuş bütün torpaqlarımızdakı 67 məsciddən 65-i məhv edilmişdir, 2-si isə yarıdağıdılmış vəziyyətdə olmuşdur. Bu isə, əlbəttə, Azərbaycana qarşı urbisid və kultursidin təzahürüdür.

Bu gün isə bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir. Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil – burada müasir texnologiyalar, “ağıllı şəhər” və “ağıllı kənd”lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir.



İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır. Bu, təbii ki, parlamentdə yenidən müzakirə ediləcək və dediyim kimi, Azərbaycan bunu öz şəxsi dövlət vəsaiti hesabına həyata keçirir. Biz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almırıq. Burada istisna iki qardaş ölkədir – Özbəkistan və Qazaxıstan prezidentləri çox səxavətli şəkildə bizə biri məktəb, biri isə incəsənət mərkəzini hədiyyə edib. Özbəkistan Füzulidə məktəb tikdi, digəri isə yekunlaşmaq üzrədir.

Yəni bu, Azərbaycan üçün çox böyük maliyyə yüküdür. Ancaq Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir.

İnsanlar erməni işğalından çox əziyyət çəkiblər, çətin şəraitdə yaşayıblar, mənəvi çətinliklərlə üzləşiblər. Onlar özlərinin haqlı hüquqlarından məhrum ediliblər, öz Vətənlərindən məhrum ediliblər, qəbiristanlıqlarını ziyarət etməkdən məhrum ediliblər. Yeri gəlmişkən, qəbiristanlıqların böyük bir hissəsi işğalçı qüvvələr tərəfindən tamamilə dağıdılıb. Onlar bu imkanı, bu fürsəti 30 il gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi – bizim şanlı Qələbəmizlə bitən müharibə onlara bu şəraiti yaratdı. Bu gün onların bizdən gözləntiləri odur ki, onları tezliklə bu yerlərə qaytaraq.

Böyük Qayıdış Proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni bu gün 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu bizim proqramın tərkib hissəsidir.

Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada – Zəngilanda 10 meqavat gücündə yeni Su Elektrik Stansiyasının açılışını etdim. Ancaq növbəti altı ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib. Bizim azad olunmuş ərazilərdə hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavat, 2024-cü ilin sonuna qədər 270 meqavat olacaq. Bu da, təbii ki, bizim yaşıl enerji gündəliyimizə böyük töhfə olacaq. Çünki Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat “yaşıl enerji” potensialı var. Buraya həm günəş, həm külək, həm də su elektrik stansiyaları aiddir. Bu, Azərbaycanın potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qiqavat təşkil edir. Tezliklə, Azərbaycan “yaşıl enerji”ni ixrac edən ölkə olacaqdır. Hətta yaşıl hidrogen ixrac ediləcəkdir. İlkin hesablamalara görə, bizim potensialımız çox böyükdür. Günəş enerjisinə gəldikdə, artıq Cəbrayıl rayonunda 240 meqavat həcmində yeni stansiya tezliklə icra olunacaq. Ümid edirəm ki, bu layihəyə gələn il başlanılacaq.

Enerji potensialı, nəqliyyat, yaşayış layihələri – bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq.

Diqqətinizə çatdırmaq istədiyim digər məsələ odur ki, Ermənistanın işğalından əziyyət çəkən köçkünlərimiz 30 il ərzində Azərbaycanın müxtəlif bölgələrində yaşayırdılar. Hökumət hər il onlar üçün 300-500 milyon ABŞ dolları arasında vəsait ayırırdı ki, yeni yaşayış layihələri icra edilsin, yeni yaşayış məntəqələri tikilsin. 300 mindən çox məcburi köçkün yaxşı şəraitlə, yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Ancaq torpaqlarımız azad edilən kimi, biz sorğu keçirdik və onların mütləq əksəriyyəti evlərinə qayıtmaq arzusunu ifadə etdilər. Bu gün artıq qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Onlar Bakıdan, ölkəmizin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən və digər bölgələrimizdən qayıtmaq istəyirlər. Onlar şəhərlərdən kəndlərə qayıtmaq istəyirlər. Yəni bunu da düzgün qiymətləndirmək lazımdır. Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir, yaşanır – insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən,

Ardı 2-ci səhifədə

Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə, ilk növbədə, Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər.

Hesab edirəm ki, bu gün burada – Zəngilanda, növbəti günlərdə Forumun Bakıda davam etdiyi müddətdə müzakirələr təkcə şəhər planlaması və inkişafa dair təcrübə mübadiləsi ilə bağlı olmayacaq, regionun gələcəyi barədə də fikir mübadiləsi aparılacaq. Biz bu regionun gələcəyini necə görürük? Diqqətinizə çatdırmaq istəyirəm ki, bizə qarşı 30 il ərzində etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib, bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən çoxu hazırkı Ermənistan ərazisindən deportasiya olunub. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib. Otuz il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi və beynəlxalq ictimaiyyətin münaqişənin dinc yolla həllinə dair bütün səylərini bloklayırdılar. Təsəvvür edirsinizmi, 1992-ci ildən 2020-ci ilə qədər danışıqlar aparıldı. Sonsuz, mənasız danışıqlar aparılırdı və onların nəticəsi sıfır idi. Danışıqlara vasitəçilik edən ölkələrə baxsaq, görərik ki, onlar istəsəydilər, buna çoxdan nail olmuşdular. Baxın, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, üç nüvə ölkəsi – onlar keçmiş Minsk qrupunun həmsədrləri idi. O qrup ki işğala son qoymaq üçün mandatı var idi və bu, ATƏT-in çətiri altında həyata keçirilirdi. Amma bizim üçün digər hüquqi çərçivə də var idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var idi ki, onlar bizim ərazilərimizin işğaldan qeyd-şərtsiz və tam azad olunmasını tələb edirdi. Onlar 1993-cü ildə qəbul edilmişdi. Onlar kağız üzərində qalmışdı. Çünki siyasi iradə yox idi və məlum idi ki, Ermənistan bunu istəmir. Onlar status-kvonu əbədi saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı daim öz nəzarətində saxlamaq istəyirdilər. Onlar bu yerlərdə, o cümlədən burada – Zəngilanda qanunsuz məskunlaşma aparırdılar. Ola bilər ki, bu, Zəngilanda o qədər də geniş vüsət almamışdı, amma Laçında, Kəlbəcərdə, Şuşada minlərlə qeyri-qanuni sakin məskunlaşdırılmışdı. Onlar Yaxın Şərqdən və digər ölkələrdən, diaspor tərəfindən dəvət edilmişdilər.

Ermənistan beynəlxalq hüququn normalarını və qaydalarını kobud şəkildə pozurdu. Cenevrə Konvensiyasına əsasən cinayət törədirdi. Ancaq beynəlxalq ictimaiyyət bu ölkəyə qarşı sanksiya tətbiq etmədi. Onları heç ictimai şəkildə qınamadılar. Onlara açıq şəkildə çağırış etmirdilər ki, öz qoşunlarını bizim ərazimizdən çıxarsın.

Beləliklə, İkinci Qarabağ müharibəsinin başlaması təkcə Ermənistanın işğal siyasəti ilə bağlı deyildi, bu məsələni həll etməyə mandatı olan ölkələrin bunu gözardı etməsi idi. Sülhə nail olmaq olardı, bu, mümkün idi. Azərbaycan hər zaman danışıqlar masasında konstruktiv idi. Biz 28 il ərzində ədalətin bərpa edilməsini gözlədik. Nəticədə isə bunu özümüz etməli olduq. Biz 44 gün ərzində bunu etdik. 44 günlük müharibə qaçılmaz idi. İlk olaraq artıq sadaladığım səbəblərdən, ikincisi isə Ermənistan bu məsələni dondurmaq istəyirdi. Hesab edirdi ki, Azərbaycanda yeni yetişən nəsil Qarabağı unudacaq. Amma onlar böyük səhvə yol verdilər. Bu gün Füzulidə, Laçında, Zabuxda, Ağalıda, Talışda təhsil alan yüzlərlə məktəbli bu torpaqları görməyib. Çünki Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz. Aydın idi ki, Ermənistan vəziyyəti məhz bu şəkildə öz nəzarəti altında saxlamaq istəyirdi. Düşünürdülər ki, nə sülh, nə müharibə – davamlı danışıqlar məhz belə də sürəcək. Eyni zamanda yeni Ermənistan hakimiyyəti ilə bağlı ümidlər də tədricən boşa çıxdı.

Əvvəlki hökumət, nəzər salsaq, aydın görərik ki, Ermənistan kriminal hərbi cinayətkarlar tərəfindən idarə olunan bir rejim idi. İki prezident özləri Xocalı soyqırımında iştirak edənlər idi. Onlar buna görə cavab verməlidirlər, məsuliyyət daşımalıdırlar. Onlar Azərbaycan torpaqlarını talayanlar idi. İyirmi il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər, həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar.

Bu gün də erməni xalqı onlara nifrət edir. Ancaq hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər şişirdilmişdi. İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdi ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları – beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək.

Ancaq İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdanda, hesab edirəm ki, hazırkı Ermənistan hakimiyyəti bu fürsəti əldən verdi. Onlar bizi düzgün qiymətləndirmədilər, öz imkanlarını düzgün qiymətləndirmədilər. Onların planları var idi ki, bizə qarşı xarici hərbi yardım olunacaq. Onlar, təbii ki, burada ciddi yanıldılar. Aydın məsələ idi ki, Azərbaycan öz ərazisində döyüşlər aparırdı. Bu bizim hüququmuz idi. Bizə BMT Nizamnaməsinə uyğun olan özünümüdafiə hüququnu tanıyan məsələ idi. Üç il bundan öncə Ermənistan kapitulyasiya etməli oldu. Bəs bundan sonra nə baş verdi? Demək olar ki, biz dərhal sülh danışıqlarına başladıq. Otuz il ərzində münaqişədən, soyqırımından, nifrətdən əziyyət çəkən xalq və ölkə ciddi siyasi iradə göstərdi, siyasi addım atdı: biz sülhü təklif etdik. Biz müvafiq komissiyaların yaradılmasını təklif etdik ki, sərhədin delimitasiyası aparılsın. Ancaq Ermənistan buna müsbət cavab vermədi. Həmin bu yeni sülh danışıqları heç bir tərəqqiyə gətirib çıxarmadı. Üç il ərzində bunu etmək olardı. Yenidən yanlış hesablama, yenidən hansısa xarici himayədarlara arxalanma yenidən çətin və mürəkkəb vəziyyət yaratdı.

Ermənistan hökumət rəsmilərinin, xüsusilə yüksək səviyyəli rəsmilərin ritorikasına baxsanız, bu gün onlar bizi heç etmədiyimiz məsələlərdə ittiham edirlər. Ermənistanın hazırkı rəhbəri 2019-cu ildə Xankəndidə tribunadan bəyan etdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Bu da bizim qırmızı xəttimiz idi. Ona qədər heç kəs belə bir ifadə işlətməmişdi. Bu da, təbii ki, atəşkəsin pozulması idi: yəni əhəmiyyətsiz, mənasız danışıqlara nə ehtiyac var? Ermənistanın rəhbəri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bir hissəsinin Ermənistana məxsus olduğunu rəsmi şəkildə deyirsə, burada hansı danışıqlardan söhbət gedə bilər? Buna baxmayaraq, biz yenə də hesab edirdik ki, bəlkə, bu, siyasi yanlışlıqdır. Lakin bundan sonra Ermənistanın müdafiə naziri bəyan etdi ki, Ermənistan bizimlə yeni ərazilər uğrunda yeni müharibəyə hazırdır. Yəni onlar bizi yeni işğalla hədələyirdilər. Belə çıxır ki, bizim ərazimizin 20 faizinin işğalı onlara kifayət etmirdi. Onların planı var idi ki, Bakıya çatsınlar, hətta Xəzər dənizində çimsinlər. Onların planlarında tanklarla Bakıya gəlmək var idi. Ancaq Ermənistana məxsus tanklar bu gün bizim Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bir çox yanlışlıqlar, yanlış hesablamalar, bizim potensialımızı, qüvvəmizi və gücümüzü nəzərə almamaq – bu, region üçün ciddi bir fəlakətə səbəb oldu.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün, hətta yenə də şans var idi. Ancaq onlar Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalı idilər. Onlar ziddiyyətli bəyanatlara son qoymalı idilər. Bir tərəfdən deyirdilər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Digər tərəfdən isə sentyabrın 2-də Ermənistanın rəhbəri qondarma rejimin rəhbərinə onun müstəqilliyi ilə bağlı təbrik məktubu göndərmişdi. Yəni bu, necə mümkün ola bilər? Bu o demək idi ki, utancverici məğlubiyyətdən üç il sonra, öz məlumatlarına görə, 12 min fərarisi olan, bizim ərazilərimizdən sprinter kimi qaçan həmin Ermənistan bizə qarşı yeni ərazi iddiası irəli sürür.

Bu artıq qırmızı xəttin növbəti dəfə pozulması idi. 9 sentyabr tarixində artıq bu, neçənci qırmızı xəttimiz idi. Qondarma Dağlıq Qarabağın qondarma “parlament”i 22 nəfərin səsi ilə “Dağlıq Qarabağ rejimi”nin “prezidenti”ni seçdi və həmin o “prezident” öz çıxışında qeyd etdi ki, biz status uğrunda mübarizə aparacağıq. Yəni bu nə deməkdir və biz buna necə cavab verməliyik?! Biz buna necə dözə bilərdik? Əlbəttə, biz buna dözə bilməzdik. On gün bundan əvvəl baş verən hadisələrin səbəbi Ermənistan baş nazirinin məsuliyyətsiz siyasəti və onun himayədarlıq etdiyi Qarabağdakı separatçılar idi, onların hərəkətləri idi.

Antiterror tədbiri 24 saatdan az müddətdə həyata keçirildi. Bunun nəticəsi nə oldu? Biz davam etdikmi? Xeyr! Bizim belə bir niyyətimiz yox idi. Biz, nəticədə, harada istəsəydik orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin, bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.

Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsin və sülh sazişinin layihəsi üzərində işləsin. 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördükləriniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır.

2020-ci il noyabrın 8-də Şuşa Ordumuz tərəfindən azad olundu və bu bizim iradəmizin təzahürü idi. Bundan iki gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu. Aprelin 23-də biz Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni artıq “boz” zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, – bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, – bu onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar.

Biz 20 sentyabrda Qarabağdakı Ermənistan ordusuna bəyan etdik: silahlarınızı yerə qoyun və oraları tərk edin. Belə də oldu və bu, baş verdi. Yəni biz sözümüzə, vədimizə əməl edirik, ona sadiqik. Əminəm ki, Ermənistan hökuməti bu hadisələri düzgün şəkildə təhlil etsə, “Qarabağ Ermənistandır!” bəyanatından sonra – 2019-cu ildə verilən bəyanatdan sonra 20 sentyabradək baş verənləri düzgün təhlil etsə, sülh əlçatandır. Bu, gələcəklə bağlı bizim baxışımızdır. Bu, regionun gələcəyi ilə bağlı baxışımızdır və hesab edirəm, beynəlxalq aktorlar və qonşular görəcəklər ki, bizim münasibətimiz konstruktivdir.

Əziz qonaqlar, hörmətli dostlar, bir daha Şərqi Zəngəzura, Zəngilana xoş gəlmisiniz. Foruma uğurlar arzu edirəm.

***

Sonra BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış etdi.

***

Müxtəlif çağırış və qeyri-müəyyənliklər qarşısında iqtisadi cəhətdən inkişaf edə biləcək davamlı şəhərlərin qurulması ilə bağlı strategiyaların müzakirəsi, fikir mübadiləsi və əməkdaşlıq üçün müxtəlif maraqlı tərəfləri, ekspertləri, siyasətçiləri və icmaları bir araya gətirən Forumun açılış mərasimindən sonra tədbir müxtəlif mövzularda sessiyalarla davam edib. Əvvəlcə “Birgə yenidənqurma – regional dayanıqlılıq və davamlı inkişaf üçün əməkdaşlıq imkanları” adlı xüsusi sessiya təşkil olunub.

Sonra “Dayanıqlı və davamlı inkişaf: strategiyalar, fəaliyyət istiqamətləri və beynəlxalq əməkdaşlıq imkanları” adlı birinci sessiyada yenidənqurma – azad edilmiş ərazilərin reabilitasiya strategiyaları, birgə hərəkət, əlaqələndirmə və regional iqtisadi inkişaf üçün nəqliyyatın imkanlarının gücləndirilməsi, rifah və sülh üçün körpülər qurmaq, münaqişələrin həllində və şəhərsalmanın inkişafında beynəlxalq əməkdaşlığın rolu kimi məsələlər müzakirə edilib.

“Viranlıqdan dayanıqlılığa: parlaq gələcəyə aparan yol” adlı ikinci sessiyada gizli təhlükə ilə mübarizə – minalarla çirklənmə və onun dayanıqlı inkişafa təsiri, regional mərkəzlərin dirçəlişi, Qarabağda əməkdaşlıq imkanlarından söhbət açılıb, Zəngilan şəhərinin Baş planı ilə tanışlıq olub.

Sonda tədbir iştirakçıları Ağalı “ağıllı kənd”inə səfər edib və Zəngilanda sürətlə aparılan yenidənqurma layihələri ilə tanış olublar.

Qeyd edək ki, NUFA2-nin növbəti sessiyaları paytaxt Bakıda təşkil olunacaq və oktyabrın 1-də yekunlaşacaq. Oktyabrın 2-də isə paytaxtımız ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə ev sahibliyi edəcək. Həmin gün nüfuzlu beynəlxalq ekspertlər və dövlət rəsmiləri “Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi” mövzusu altında əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsini aparacaqlar.

**AZƏRTAC**

## Azərbaycan-Türkiyə III Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransı keçirilib









Naxçıvan şəhərində energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə Azərbaycan-Türkiyə III Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransı keçirilib.

Tədbirin açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, energetika naziri Pərviz Şahbazov, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Mohammed Almheiri çıxış ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iki ölkənin qardaşlıq və müttəfiqlik münasibətlərinin regionda sabitlik və enerji təhlükəsizliyinin təminatında əhəmiyyətindən bəhs edib. Forum və konfransın Naxçıvanda keçirilməsinin muxtar respublikanın “yaşıl enerji zonası”na çevrilməsi prosesinə töhfə verəcəyini qeyd edib: “Yaşıl enerji” layihələrinin reallaşdırılması yaxın illərdə Naxçıvanı enerji ixracatçısına çevirəcək və onun strateji əhəmiyyətini daha da artıracaq”.

Naxçıvanın bütün dövrlərdə Azərbaycan-Türkiyə münasibətlərinin mərkəzində olduğunu vurğulayan energetika naziri Pərviz Şahbazov deyib ki, hər iki ölkənin prezidenti – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın bir-birinə sarsılmaz inam və güvənlə yürütdükləri siyasət, onların liderliyi ilə tarixdə bənzəri olmayan Azərbaycan-Türkiyə birliyinin gücü qardaş-dost münasibətlərimizi müttəfiqlik statusuna yüksəldib. Bildirilib ki, Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməyi və onu “yaşıl enerji” zonasına çevirməyi hədəfləyən yeni inkişaf mərhələsi Azərbaycan-Türkiyə enerji əməkdaşlığında yeni səhifədir:

“Bu günlərdə illik 500 milyon kubmetr qaz tədarük edəcək İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması, həmçinin Azərbaycanda və Türkiyədə bərpa olunan enerji mənbələrindən istehsal edilən elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlıq sənədinin imzalanması mərasimində Azərbaycan-Türkiyə prezidentlərinin iştirakı bir daha göstərdi ki, ölkələrimiz yeni strateji kursun birgə həyata keçirilməsində qərarlıdır və onların siyasi iradəsi bu prosesdə də həlledicidir”.

Külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığın Naxçıvanı “yaşıl enerji”nin istehsalı – ixracının da mənbəyi və marşrutuna çevirəcəyi qeyd edilib. Bu xüsusda “TotalEnergies” və “Nobel Energy” şirkətləri ilə ümumi gücü 650 MVt olan günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edildiyi bildirilib. “Masdar” şirkəti ilə ilkin mərhələdə gücü 150 MVt olan günəş elektrik stansiyası, “Czech Engineering” şirkəti ilə günəş elektrik stansiyaları, eləcə də Almaniyanın “Notus” şirkəti ilə “yaşıl enerji” layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırılıb.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar isə çıxışında bildirib: “Türkiyə və Azərbaycan olaraq Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və TANAP təbii qaz boru kəmərləri kimi regionumuzun və Avropanın enerji təchizatı təhlükəsizliyinə mühüm töhfələr verən böyük infrastruktur layihələrini yeni dövrdə bərpa olunan enerji, elektrik interkonnektor layihələri, mədənçilik kimi müxtəlif sahələrdə də inkişaf etdirmək istəyirik”.

BƏƏ-nin iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Mohammed Almheiri çıxışında “Masdar” şirkətinin Azərbaycandakı fəaliyyətinin önəmindən danışıb:

“Ölkəm qısa zamanda COP28-də dünya liderlərini, sənaye öncüllərini və iqlim ekspertlərini qəbul edəcək. “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransında aparılan müzakirələr bu ilin sonunda Dubayda keçiriləcək, COP28 müzakirələrinə öz töhfəsini verəcək”.



Forum və konfrans paralel şəkildə işini davam etdirib. Konfrans çərçivəsində “Enerji keçidi sahəsində dövlət siyasəti”, “Enerji keçidinə şirkətlərin baxışı və töhfəsi”, “Naxçıvan “yaşıl enerji” zonası kimi: potensial imkanlar və layihələr”, “Naxçıvanın “yaşıl enerji” potensialının Türkiyəyə və Avropa bazarlarına ixracı imkanları”, “Naxçıvanda bərpa olunan enerji mənbələri sahəsində konseptual yanaşmalar və milli kontentin yaradılması imkanları”, “Naxçıvanda “yaşıl enerji” layihələrinin maliyyələşdirilməsi imkanları” mövzularında plenar sessiyalar keçirilib.

Tədbirlərdə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Bəxtiyar Məmmədov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri Samir Axundov, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti vəzifəsini icra edən Vüqar Şahmuradov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, eləcə də BOTAŞ, TPAO, TEİAŞ, “ACWA Power”, “TotalEnergies”, “BP”, “Masdar”, “China Gezhouba Group Overseas Investment”, “Nobel Energy”, Türkiyə Külək Enerjisi Birliyi, MTA, EPİAŞ, TÜREB, GÜNDER, TEPSCO, Türkiyə Enerji Ticarəti Dərnəyi, “McKinsey & Company”, DTİK, Beynəlxalq Maliyyə Korporasiyası, İslam İnkişaf Bankının İslam Korporasiyası, Dünya Bankı, Asiya İnkişaf Bankının səlahiyyətli nümayəndələrinin çıxışları dinlənilib.

Yekunda “Azərbaycan-Türkiyə III Enerji Forumunun Protokolu”, həmçinin “Naxçıvan üzərindən “Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə” layihəsinin icrası ilə əlaqədar 2023-2025-ci illərdə “TEİAŞ” və “Azərenerji” ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və “A-Z Czech Engineering” MMC arasında “Azərbaycan Respublikası ərazisində bərpa olunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və “ACWA Power” şirkəti arasında “Batareya Enerji Saxlama Sistemi (BESS) layihəsi və 200 MVt quruda külək layihəsi üçün tədbirlər təqvimi (Yol xəritəsi)” imzalanıb.

**“Şərq qapısı”**

## Ali Məclisin mətbuat xidmətinin məlumatı



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən Ali Məclisin payız sessiyası oktyabrın 2-si saat $11^{00}$-da öz işinə başlayacaqdır.

Ali Məclisin payız sessiyasının ilk iclasında 2023-cü il payız sessiyasının qanunvericilik işləri planının təsdiqi, “Normativ-hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər, Ali Məclisin İntizam Komissiyasının tərkibində dəyişikliklər və digər məsələlərin müzakirə edilməsi nəzərdə tutulur.

Sessiyanın iclasında Ali Məclisin deputatları və dövlət mətbuat orqanlarının nümayəndələri iştirak edəcəkdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə iclası keçirilib



Sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 7 üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov iştirak edib.

Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli gündəlikdə duran məsələ – “Normativ-hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının qanununda ediləcək dəyişikliklə bağlı layihə hazırlandığını bildirib.

Qanun layihəsi haqqında Cəlil Rüstəmov məlumat verib.

Müzakirələrdən sonra qanun layihəsi altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci (payız) sessiyasının birinci iclasına təqdim edilməsi üçün səsə qoyulub, qərar qəbul edilib.

## Ali Məclis Qənirə Paşayevanın vəfatı ilə əlaqədar ailəsinə başsağlığı verib

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Milli Məclisinin deputatı, ictimai-siyasi xadim, jurnalist Qənirə Paşayevanın vaxtsız vəfatı ilə əlaqədar ailəsinə başsağlığı verir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## AMEA Naxçıvan Bölməsində yeni təyinatlar olub

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası olub. İclası açan Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı son hərbi-siyasi qələbədən – 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Qarabağda keçirilən lokal xarakterli antiterror əməliyyatından sonra qanunsuz erməni silahlı birləşmələrinin təslim olmasından, qondarma rejimin özünü buraxmasından və bölgədəki son vəziyyətdən danışıb.

Daha sonra akademik iştirakçıları iclasın gündəliyinə çıxarılan məsələlərlə tanış edib.

Bölmə aparatının Təchizat və xidmət şöbəsinin baş mütəxəssisi İlham Cəfərov çıxış edərək 2023-2024-cü illərin payız-qış mövsümünə hazırlığın vəziyyəti barədə məlumat verib. Bildirilib ki, bölmənin nəzdindəki inzibati binaların qaz, su, elektrik və istilik sistemlərinə texniki baxış keçirilib, bəzi təmir işləri aparılıb, yarana biləcək nöqsanların qarşısını almaq məqsədilə ehtiyat tədbirləri görülüb.

İclasda bölmənin Beynəlxalq əlaqələr və informasiya şöbəsinin bazasında Beynəlxalq əlaqələr və Elektron xidmətlər şöbələrinin yaradılması, əməkdaşların ali təhsil müəssisələrində yarımştat və saathesabı qaydada işləmələrinin normativləri, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda aparılmış yoxlamaların nəticələri ilə bağlı müzakirə aparılıb.

İclasın növbəti hissəsi kadr məsələlərini əhatə edib. Belə ki, Rəyasət Heyətinin qərarına əsasən AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyev AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna icraçı direktor, İlham Cəfərov isə Təchizat və xidmət şöbəsinə müdir təyin edilib, bir nəfər Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda işlə təmin olunub.

İclasa gündəlikdəki cari məsələlərin müzakirəsindən sonra yekun vurulub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***



## Aktivlər verilib

Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanan memoranduma əsasən 2023-cü ildə 50 ailəyə özünüməşğulluq proqramı çərçivəsində aktivlərin verilməsi nəzərdə tutulub.

Dünən “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Şahbuz rayon Keçili kənd sakini Məmmədov Barat Famil oğlu kiçik dəmirçi sexi zərfi üzrə aktivlərlə təmin olunub. Artıq respublikanın müxtəlif regionlarında yaşayan 3 ailə proqrama daxil olan zərflər toplusuna aid aktivlərlə təmin edilib. Proqrama cəlb ediləcək vətəndaşlar arasında şəhid ailəsi üzvləri, müharibə əlili, müharibə veteranı və digər qruplar üstünlük təşkil edir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda Azərbaycan-Türkiyə enerji əməkdaşlığı müzakirə edilib



Naxçıvanda Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyətləri arasında ikitərəfli görüş olub.

Görüşdə gündəlikdə olan məsələlər müzakirə edilib. Birgə enerji layihələrinin region və Avropa miqyasında enerji təhlükəsizliyindəki rolundan bəhs edilib. İğdır-Naxçıvan qaz kəmərinin və Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixracının reallaşdırılmasının Azərbaycan-Türkiyə enerji tərəfdaşlığını daha da möhkəmləndirəcəyi qeyd edilib. Bu məqsədlə də layihələrin sürətləndirilməsinin vacibliyi vurğulanıb və Türkiyə üzərindən qazın Naxçıvana nəqlinin ilin sonuna planlaşdırıldığı bildirilib. Həmçinin TEİAŞ və Azərenerji Açıq Səhmdar Cəmiyyəti arasında əlaqələrin gücləndirilməsinin zəruriliyi qeyd edilib. Görüşdə Avropaya əlavə qaz tədarükü istiqamətində SOCAR və BOTAŞ-ın birgə fəaliyyəti müzakirə edilib. Söhbət zamanı "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında energetika sahəsində əməkdaşlığın gücləndirilməsi haqqında müqavilə"nin, eləcə də Bakı şəhərində yerləşəcək İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsinin imzalanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Hər iki ölkə nazirlərinin və Enerji Forumu çərçivəsində fəaliyyət göstərən 6 işçi qrupunun rəhbərlərinin iştirakı ilə də görüş keçirilib. Görüşdə karbohidrogen və neft-kimya məhsulları, enerji səmərəliliyi, elektrik enerjisi bazarı, elektrik enerjisinin paylanması və ötürülməsi, tənzimləmə, bərpa olunan enerji və mədənçilik istiqamətləri üzrə birgə işçi qruplarının hesabatları dinlənilib. Əməkdaşlıq imkanları dəyərləndirilib və yeni istiqamətlər üzrə atılacaq addımlar müəyyənləşdirilib.

## İki ölkə arasındakı könül bağları enerji bağları ilə daha da möhkəmləndirilir

### *Forum çərçivəsində iki ölkənin nazirləri press-brifinq keçiriblər*

*Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı ilə bağlı press-brifinq keçiriblər.*




***Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov*** çıxışında deyib: "Bu həftə ərzində Naxçıvanda çox önəmli hadisə baş verdi. Həftənin əvvəlində Azərbaycan və Türkiyə dövlət başçılarının Naxçıvana səfəri oldu. Bu səfər çərçivəsində Naxçıvan ilə İğdır arasında qaz boru xəttinin təməlqoyma mərasimi keçirildi. Dövlət başçılarımız bu mərasimdə iştirak etdilər. Eyni zamanda bu səfər çərçivəsində Azərbaycan ilə Türkiyə Energetika nazirlikləri arasında Naxçıvan Türkiyə arasında elektrik enerjisi bağlantısının da olacağını nəzərdə tutan layihə haqqında memorandum imzalandı. Və bu çərçivədə biz bu gün artıq "Azərenerji" və "TEİAŞ" arasında yeni bir razılaşma əldə etdik. Bu layihənin həyata keçirilməsi üçün yol xəritəsini əks etdirən yeni bir layihə imzalandı. Bizim niyyətimiz Azərbaycan ilə Türkiyə arasında bu günə qədər olan strateji enerji əməkdaşlığını da daha geniş inkişaf etdirməkdir. Bu sahənin demək olar ki, bizim aramızda baxmadığımız, müzakirə etmədiyimiz istiqamətləri yoxdur. Enerji sahəsinin bütün istiqamətləri üzərində bizim çox geniş bir iş birliyimiz var. Azərbaycan-Türkiyə enerji forumu çərçivəsində bu platformada biz neft, qaz və eyni zamanda elektrik enerjisi, bərpa olunan enerji, səmərəli elektrik enerjisi bazarının yaradılması və mədənçilik üzrə də işçi qruplar çərçivəsində işlər aparılır". Nazir əmin olduğunu bildirib ki, gələcəkdə də bu platformadan istifadə edib, Azərbaycan-Türkiyə strateji əməkdaşlığının inkişaf etdirilməsi üçün yeni səylər göstərəcəyik.

***Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar:*** "Bazar ertəsi cənab Prezidentimizin dövlət ziyarəti çərçivəsində burada idik. Türkiyə-Azərbaycan, iki ölkə arasında könül bağları mövcuddur. Bu könül bağlarını enerji bağları ilə daha da möhkəmləndirməyə çalışırıq. Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yanında, indi də İğdır-Naxçıvan boru xəttinin təməlini atdıq. Önümüzdəki il bu boru xəttini tamamlayıb və həmin ilin qışı Naxçıvanda Türkiyədən gəlmiş qazla insanlarımızı təmin edəcəyik. Azərbaycan energetika nazirinin də dediyi kimi, xüsusilə enerji tərəfində, bu bölgənin Günəş, külək enerji potensialını həyata keçirəcək, buradan alınan elektriki Türkiyəyə götürə biləcək interkonneksion layihələri üzrə işbirliyimizi inkişaf etdiririk. Bu mənada, imzaladığımız sənədlərlə sistem operatorlarımızın işbirliyini də daha irəli səviyyəyə götürmək istəyirik. Türkiyə-Azərbaycan enerji forumu bizim münasibətimizi, enerjidəki əlaqələrimizi artıracaq, daha da dərinləşdirəcək önəmli bir platformadır".

Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri jurnalistlərə onu da bildirib ki, iki ölkənin enerji sahəsindəki bu işbirliyi, sadəcə, iki ölkə üçün deyil, bölgədə, Avropa təchizat təhlükəsizliyi, qlobal neft bazarı üçün çox önəm kəsb edir. Bu gün Bakı-Tbilisi-Ceyhan boru xəttində, təxminən, 700 min barel neft Ceyhan üzərindən dünya bazarına gedir. Bənzər şəkildə TANAP və Türkiyə-Bolqarıstan üzərindən də Avropa təchizat təhlükəsizliyinin artırılmasına təbii qaz baxımından önəmli bir töhfə veririk. Bu töhfəni verməyə davam edəcəyik. İki dost, qardaş ölkə, etibarlı tərəfdaşlar olaraq Avropanın təchizat təhlükəsizliyindəki töhfələrimizi verməyə davam edəcəyik.

**Xəbərlər şöbəsi**

## Qadınların gözünün nuru, zəhmətinin bəhrəsi, cəmiyyətə inteqrasiyaya vasilə

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının foyesində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış"ın açılış mərasimi keçirilib.***



Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi Aparatının media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı çıxış edib. Çıxışda son dövrlərdə Naxçıvanın beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etdiyi, bunun muxtar respublika üçün yeni bir mərhələ olduğu vurğulanıb. Bildirilib ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının, təqribən, yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin sıx dövlətçilik və siyasi fəaliyyəti ilə bağlıdır. Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi də məhz o dövrdə qoyulub. Bu gün də bu siyasət uğurla davam etdirilir. Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikanın sosial-iqtisadi inkişafının yeni mərhələsinin təməlini təşkil edir. Dövlət Proqramı çərçivəsində görülən işlər muxtar respublikanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradacaq.

Günay Malikqızı çıxışında vurğulayıb ki, məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda çox maraqlı işlər nümayiş etdirilir. Bu, qadınların gözünün nuru, zəhmətinin bəhrəsidir və onlar bu işlərlə cəmiyyətə inteqrasiya olunur, sağlam münasibətlərin əsası qoyulur. Ona görə belə tədbirlər çox əhəmiyyətlidir və bu istiqamətdə işlər davamlıdır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün uğurla davam etdirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınlarımızın rolunu daha da artırıb. Muxtar respublika əhalisinin 50 faizindən çoxunu qadınlar təşkil edir ki, onlar həm yerli və mərkəzi icra hakimiyyəti orqanlarında, həm də özünüidarəetmə orqanlarında geniş təmsil olunurlar.

Vurğulanıb ki, muxtar respublikada qadınların məşğulluqlarının təmini istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qadınlar müvafiq peşə kurslarına cəlb olunur, məhdud fiziki imkanlı və istedadlı qadınların əl işlərinin sərgi-satışı təşkil edilir, həmçinin onların özünüməşğulluqlarının və sosial vəziyyətlərinin yaxşılaşmasına dəstək göstərilir, sosialyönümlü layihələr icra olunur.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov qeyd edib ki, bu il Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar muxtar respublikada silsilə tədbirlər keçirilir. Bugünkü tədbir də onların davamıdır. İstedadlı qadınların, məhdud fiziki imkanlı şəxslərin inklüziv cəmiyyətə inteqrasiyasında bu tədbirlərin rolu mühümdür.

Diqqətə çatdırılıb ki, gələcəkdə Naxçıvanda İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılması nəzərdə tutulur. Yeni təsisat istedadlı şəxslərin müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsinə xidmət göstərəcək.

İstedadlı qadın Qumru Vəlizadə muxtar respublikada yaşayan bütün qadınlara göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edib.

Çıxış edənlər istedadlı və yaradıcı qadınları təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, sərgi-satışa diyarımızın yeraltı və yerüstü sərvətlərindən hazırlanmış sənətkarlıq nümunələri, müxtəlif yerli və təbii daşlardan hazırlanan bəzək əşyaları, sulu boya ilə, dekorativ tikmə, toxunma, aplikasiya, yağlı boya ilə, qələmlə işlənmiş tablolar, taxta üzərində yandırma, taxta üzərində oyma, toxuma, bədii tikmə, dekorativ iş, keramika, ebru sənəti, heykəltəraşlıq, xalçalar və digər əl işləri olmaqla, ümumilikdə, 400-dən çox müəllifin 10 mindən artıq əl işi çıxarılıb.

Qeyd edək ki, sərgi-satışın 10 gün davam etməsi nəzərdə tutulur. Sərgi-satış çərçivəsində "Ən yaxşı əl işi" müsabiqəsi keçiriləcək. Müsabiqədə əl işləri rəsm, toxumatikmə, dekorativ-tətbiqi sənət nominasiyaları üzrə qaliblər müəyyən ediləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*İcmal*

## Naxçıvan ölkə başçısının müəyyənləşdirdiyi siyasət üzrə inkişaf yolu ilə irəliləyir

*Azərbaycan Respublikası Prezidentinin ölkəmizin hər yerində olduğu kimi, qədim diyarımız Naxçıvanda da müasir və daha da təkmilləşdirilmiş idarəetmə sistemi formalaşdırmaq, iqtisadi-siyasi uğurlara, yüksək sosial rifaha nail olunması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət, 2022-ci ilin dekabrından Naxçıvanda yeni idarəetmə institutunun fəaliyyətə başlaması, Ali Məclisin də fəaliyyətinin təkmilləşdirilməsinə əsaslı təkan vermişdir. Ötən ay muxtar respublikanın ictimai-siyasi həyatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin strukturunun, qanunvericilik bazasının daha da fundamental şəkildə sistemləşdirilməsi məqsədilə növbədənkənar sessiyasının keçirilməsi ilə başladı. Avqust ayının birində keçirilən sessiyanın gündəliyinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı Qanun müzakirəyə çıxarıldı. Muxtar respublikada aparılan struktur islahatları nəticəsində bir sıra dövlət orqanları və qurumların ləğv edilməsi və ya strukturunun dəyişdirilməsi ilə müvafiq olaraq xərclərin də tənzimlənməsi zərurəti yarandığından hazırlanan yeni qanun layihəsi səsə qoyularaq qəbul olunub.*

Sessiyada "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsində dəyişiklik edilməsi ilə əlaqədar qanun layihələri də qəbul olunub.

Gündəlikdə duran dördüncü məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva hesabat verib. Günay Rzayeva deputat Fərəc Fərəcovun Naxçıvan Muxtar Respublikası ərazisində əlverişsiz hava şəraiti nəticəsində azaraq itkin düşən, Ermənistan tərəfinə keçən və orada onlara işgəncələr verilən, qanusuz məhkəməyə çıxarılan Azərbaycan Ordusunun iki əsgəri ilə bağlı müraciətini cavablandıraraq məsələ ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən görülən işlər barədə məlumat verib, müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mövcud Daxili Nizamnaməsi Ali Məclisin fəaliyyətinin qurulmasına cavab vermədiyi, ölkə qanunvericiliyi ilə uyğunlaşmadığı üçün yeni layihə işlənilib deputatlara təqdim edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"nə texniki dəyişikliklə bağlı təklif irəli sürüb və təklif nəzərə alınıb.

Sonra sessiyanın gündəliyinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunları qəbul edilib. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələrin yeni tərkibi seçilib.

Sessiyada Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 20 iyun tarixli Fərmanı ilə Baş nazirin müavini vəzifəsinə olan təyinat da müzakirəyə çıxarılıb, məsələ ilə əlaqədar qərar qəbul edilib.

*Ardı 5-ci səhifədə*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov deyib ki, "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən də diqqətdə saxlanılıb, müvafiq tədbirlər görülüb. Müxtəlif silsilə tədbirlərlə yanaşı, 10 may 2023-cü il tarixdə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilib.

Bildirilib ki, 2023-cü ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Ali Məclisi sədrinin qəbul etdiyi dövlət sənədləri, keçirilən sessiyalar haqqında məlumat verən, keçirilən sessiyada qəbul edilən qanunların əhəmiyyətini vurğulayaraq Azər Zeynalov deyib: "Bundan sonra Ali Məclis fəaliyyətini daha çevik formada qurmalı, qarşıya qoyulmuş vəzifələr ardıcıl şəkildə icra edilməlidir".

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi tədbirlər, sabitliyin təmin olunması ölkəmizin inkişafını daha da sürətləndirir və dünya miqyasında mövqeyini möhkəmləndirir. Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarını Ermənistan tərəfinin "bölgədə gərgin humanitar vəziyyət" iddialarına, Laçın sərhəd-buraxılış məntəqəsinə "humanitar yük" adı altında konvoylar göndərməsinə münasibət bildirməyə çağırıb. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

### *Əlaqələr inkişaf mərhələsində*

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı əlaqələrdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının da öz payı var. Naxçıvanda avtomobil istehsalı və yeni texnologiyaların tətbiqi sahəsində Çin şirkətləri ilə əməkdaşlığın olduğunu bildirib, Çin Hökuməti tərəfindən muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dəstək buna misal ola bilər.

Avqustun 10-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Səlahiyyətli nümayəndə qonaqları salamlayaraq Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xəttin bu gün Azərbaycanda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

2022-ci ilin dekabrından Naxçıvanda fəaliyyətə başlayan yeni idarəetmə institutu, Səlahiyyətli Nümayəndəliyin fəaliyyəti barədə məlumat verən Fuad Nəcəfli bildirib ki, ötən dövrdə Naxçıvandakı mövcud vəziyyət araşdırılıb və ölkə Prezidentinin Sərəncamı ilə 5 illik sosial-iqtisadi inkişaf proqramı təsdiq edilib. Proqramda kənd təsərrüfatı, energetika, yol infrastrukturu, xüsusi iqtisadi rejimə keçid kimi 11 prioritet istiqamət üzrə layihələr reallaşdırılacaq. Naxçıvan Muxtar Respublikasının, ümumilikdə, "yaşıl enerji" məkanına çevrilməsi ölkə Prezidentinin diqqətindədir. Bunun üçün Naxçıvanda 1500 meqavat gücündə "yaşıl enerji" potensialı mövcuddur. Vurğulanıb ki, bu layihələrin reallaşdırılmasında Azərbaycanla Çin Xalq Respublikası arasındakı əlaqələr də önəm kəsb edir. Çin investorları Azərbaycana böyük maraq göstərirlər. Eyni zamanda Naxçıvanda fəaliyyət göstərən şirkətlər Çin şirkətləri ilə geniş əməkdaşlıq edirlər.

Görüşdə 2021-ci ildə Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan ən strateji bölgələrindən olan Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikasının ən iri sənaye bölgəsi olan Çunçin şəhəri arasında dostluq və əməkdaşlıq əlaqələrinin qurulmasına dair memorandumun imzalanması əlamətdar hadisə kimi qiymətləndirilib, əlaqələrin müxtəlif istiqamətlər üzrə genişləndirilməsi perspektivləri müzakirə edilib.

### *Ümummilli Liderin gənclər siyasəti bugünkü bəhrələri ilə də özünü doğruldur*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxışında demişdir: ***"Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm".*** Dövlət başçımızın özünün də bəyan etdiyi kimi, xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə çağırıb. Bundan başqa, Birinci vitse-prezident Mehriban Əliyeva xarici ölkələrdə Azərbaycan məktəblərinin fəaliyyətini xüsusi diqqət mərkəzində saxlayır. Bu məqamda, Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər. "Heydər Əliyev İli" çərçivəsində qədim Azərbaycan torpağı olan Naxçıvanda Diaspor Gənclərinin IV Yay Düşərgəsinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış mərasimindəki çıxışında IV Yay Düşərgəsinin iştirakçılarını Ümummilli Lider Heydər Əliyevin dünyaya gəldiyi Naxçıvan şəhərində salamlamaqdan məmnun olduğunu bildirib, düşərgənin işinə uğurlar arzulayıb. Ulu Öndərin Naxçıvanla bağlı fəaliyyətindən ətraflı bəhs edən Fuad Nəcəfli onun siyasi kursunun layiqli davamçısı olan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Naxçıvanda aparılan tikinti-quruculuq işləri və inkişaf perspektivləri barədə məlumat verib. Çıxışlarda qeyd olunub ki, Azərbaycan diasporu hazırda öz tarixinin ən güclü dövrünü yaşayır və Azərbaycan dövləti işğalçı Ermənistana qalib gəldiyi kimi, diasporumuz da böyük imkanlara malik Ermənistan diasporuna qalib gəlib: Diaspor Gənclərinin Yay düşərgələri kimi layihələrin diasporun fəaliyyətində, təşkilatlanmasında və ana Vətənlə əlaqələrin qurulmasında müstəsna əhəmiyyəti var.



Bir həftə davam edən "Yay düşərgəsi"nin bağlanış mərasimində səlahiyyətli nümayəndə düşərgə iştirakçılarını beş ildən sonra yenidən Naxçıvana dəvət edib: ***"Mən sizinlə saqollaşmıram, "Aramıza xoş gəldiniz", – deyirəm".*** Düşərgə iştirakçılarına sertifikatlar təqdim olunduqdan sonra tədbir bədii hissə ilə yekunlaşıb.

Qeyd edək ki, avqustun 12-dən 18-dək davam edən Diaspor Gənclərinin IV Yay Düşərgəsi Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 2022-ci il 29 sentyabr tarixli Sərəncamı çərçivəsində həyata keçirilərək dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gəncləri vahid platforma ətrafında bir araya gətirmək və Azərbaycanla daha yaxından tanış etmək məqsədini daşıyırdı. Düşərgədə 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edib. Layihənin Heydər Əliyevin bir əsr öncə dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi xüsusi önəm daşıyıb.

Ümummilli Lider Heydər Əliyevin siyasi uzaqgörənliyi ölkəmizdə gənclərin təhsilinin və hərtərəfli inkişafının diqqətdə saxlanılması ilə də bir daha özünü təsdiqləyir. Ümummilli Liderin təhsil siyasətinin uğurlu davamı bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da çoxsaylı təhsil uğurlarında təcəssüm olunur. 2022-2023-cü tədris ilində ümumtəhsil məktəblərini 3166 məzun bitirib. Onlardan 196 nəfəri buraxılış və qəbul imtahanlarında, ümumilikdə, 596-700 arası bal toplayıb. 84 məktəb yüksək nəticə verib ki, bunun da 57-si, yaxud 68 faizi kənd məktəbləri olub. Şərur rayonunun Kürçülü kənd tam orta məktəbinin məzunu Mikayıl Cəfərli 691 bal toplayaraq II ixtisas qrupu üzrə ölkə birincisi olub. Bununla yanaşı, Dövlət İmtahan Mərkəzinin elmi-statistik təhlilinə əsasən ötən il məzunların ali təhsil müəssisələrinə qəbulolma göstəricilərində ilk onluqda muxtar respublikanın 1 şəhər və 5 rayonu yer alıb.

Avqustun 18-də təhsildə xüsusi nailiyyətlərlə başa vurmuş və qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüş keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli görüşdəki çıxışı zamanı vurğulayıb ki, bu gün Prezident cənab İlham Əliyev tərəfindən gənclər siyasəti uğurla həyata keçirilir. Ölkə başçısının təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan təhsil quruculuğunun əsas hədəfi gənclərin gələcəyə və mötəbər tribunalara hazırlanmasıdır. Vurğulanıb ki, gələcəyimiz olan gənclərin yiyələndikləri biliklərin 10 il sonra ölkəmizin gələcək inkişafında öz sözünü deyəcəyinə əminliyini ifadə edən Fuad Nəcəfli gənclərə təhsillərində və gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Çıxışlardan sonra 2022-2023-cü tədris ilində tam orta təhsilini xüsusi nailiyyətlərlə başa vuran 20 məzuna "Qızıl", 24 məzuna isə "Gümüş" nişanlar təqdim olunub. Ayrı-ayrı ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərərək muxtar respublika birincisi olmuş gəncləri mükafatlandırıb.

### *Taxıl istehsalının inkişafı aqrar siyasətin başlıca amilidir*

2022-ci ilin payızında 20 min 762, cari ilin yazında isə 405,7 hektar olmaqla, 21 min 247 hektar sahədə taxıl əkini həyata keçirilib. Ümumilikdə, 19 min 797 hektara yaxın əkin sahəsində taxıl biçini həyata keçirilib, 49 min 267 tondan artıq məhsul toplanıb. Toplanan məhsulun 12 min 233 hektarını buğda, 9014 hektarını arpa təşkil edib. Orta məhsuldarlıq hər hektarda 24,9 sentner olub.

Qeyd edilib ki, suvarma suyunun çatışmazlığı səbəbindən əkin sahələrinə su verilməsi tam təmin olunmayıb. Nəticədə, 1450 hektar sahə tamamilə quruyub. Quruyan sahələrin əksəriyyəti kənd təsərrüfatı təyinatı olmayan torpaqlardır.

Taxıl istehsalında məhsuldarlığa görə muxtar respublikanın Şərur və Sədərək rayonları ən yüksək, Ordubad, Culfa və Şahbuz rayonları isə aşağı nəticə əldə ediblər. Avqustun 23-də Kəngərli rayonunda "Taxıl istehsalının inkişafı ilə bağlı 2023-cü ilin yekunları və cari ildə payızlıq taxıl əkinləri üçün qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qlobal istiləşmə və su çatışmazlıqları fonunda Naxçıvanda taxıl biçini mövsümünün mütəşəkkil başa vurulduğunu diqqətə çatdırıb. Taxılçılığın inkişafını ləngidən mövcud problemlərdən bəhs edən səlahiyyətli nümayəndə bildirib ki, su problemi yeni mübarizə metodlarının, innovativ üsulların tətbiqini şərtləndirir.

Qeyd edilib ki, ötən dövrdə Səlahiyyətli Nümayəndəliyin nəzarəti altında müvafiq komissiyalar tərəfindən monitorinqlər aparılıb, qeydə alınan problemlər təhlil edilərək kateqoriyalaşdırılıb və bunun da əsasında görüləcək tədbirlər müəyyənləşdirilib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da kənd təsərrüfatının inkişafı ən əhəmiyyətli hədəflərdən biri kimi müəyyənləşdirilib. 11 prioritet istiqamətə əsaslanan proqramda aqrar sahəyə aid 270-dən çox alt layihə müəyyənləşdirilib. İlkin olaraq Babək rayonu ərazisində layihələndirmə işlərinə başlanılıb. Heydər Əliyev və Araz Su anbarlarından yeni su xətləri çəkiləcək, "Araz-1" və "Araz-2" nasos stansiyalarının fəaliyyəti yenidən bərpa olunacaq. Bildirilib ki, bir çox yerlərdə suvarma şəbəkələrinin istismar müddətini başa vurması suvarma suyunun verilməsi zamanı 40-50 faiz həcmində itkilərə səbəb olur. Bu itkilərin aradan qaldırılması məqsədilə suvarma şəbəkələri mərhələli şəkildə yenidən qurulacaq. Həmçinin su resurslarından səmərəli istifadə üçün növbəti əkin mövsümündən etibarən damcılı suvarma üsulunun tətbiqi üzrə pilot layihələrin tətbiqinə başlanılacaq.

Qeyd edilib ki, dövlətimiz kənd təsərrüfatının, o cümlədən də strateji sahə olan taxılçılığın inkişafı məqsədilə mühüm islahatlar keçirir. Əkinçilər subsidiyalar, texnika və gübrələrlə təmin olunur. Bununla belə təsərrüfat sahibləri də bu layihələrdən səmərəli yararlanmalı, innovativ yeniliklərə maraq göstərməlidirlər.

Səlahiyyətli nümayəndəsi müşavirəyə yekun vuraraq tapşırıq və tövsiyələrini verib. Sonda yüksək məhsuldarlıq əldə edən taxıl istehsalçılarına fəxri fərmanlar təqdim olunub.

### *Muxtar respublikada səhiyyənin inkişaf prioritetləri dünya səhiyyə sisteminin tələbləri ilə səsləşir*

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndə heyətinin Naxçıvana səfəri, buradakı müasir səhiyyə xidmətinin təşkili, alitəhsilli tibbi kadr hazırlığının vəziyyəti bir daha bu qənaəti formalaşdırdı ki, təşkilatla Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin müasir səhiyyə xidmətinin inkişafı ilə bağlı prioritetləri üst-üstə düşür. Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndə heyəti ilə görüşüb.

Bildirilib ki, Naxçıvan səhiyyəsində daha mütərəqqi və inkişaf etmiş struktur dəyişiklikləri aparılır. Ötən müddətdə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə şəffaflıq təmin edilib, səhiyyə personalının hüquqları bərpa olunub və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti artırılıb.

Hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əsas prioritet istiqamətlərindən birinin səhiyyə sahəsinin inkişafı olduğunu bildirən Fuad Nəcəfli Naxçıvanda özəl tibb müəssisələrinin yaradılmasının vacibliyini diqqətə çatdırıb. Səlahiyyətli nümayəndə investorların bu sahədə reallaşdırılacaq mühüm layihələrdə iştiraka cəlb olmasının əhəmiyyətini vurğulayıb, bu baxımdan Ümumdünya Səhiyyə Təşkilatı ilə geniş əməkdaşlığın qurulmasının vacibliyinə toxunub.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı Naxçıvan Muxtar Respublikası ilə işbirliyinin qurulmasında maraqlı olduqlarını diqqətə çatdıraraq vurğulayıb ki, Azərbaycanda səhiyyənin inkişafına hədəflənmiş yeni Dövlət Proqramı hazırlanır.

Görüşdə sözügedən Dövlət Proqramına, xüsusilə Naxçıvanda ölkə üçün mühüm səhiyyə yeniliklərini ehtiva edəcək pilot layihələrin əlavə edilməsi məsələləri müzakirə edilib, birgə fikir mübadiləsi aparılıb. Vətəndaş qəbulu problemlərin həllinə yönəldilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli avqustun 2-də Babək rayonunun Cəhri qəsəbəsində, avqustun 22-də rayonun Qahab kəndində, avqustun 29-da isə Şərur rayonunun Çərçiboğan kəndində olub, sakinlərlə görüşüb.

Görüşlərdə səlahiyyətli nümayəndə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verib, həyata keçiriləcək sosial-iqtisadi layihələri, o cümlədən kənd təsərrüfatının inkişafı istiqamətində görüləcək işləri diqqətə çatdırıb.

Cəhri qəsəbəsində keçirilən görüş zamanı 47 sakinin hər birinin ayrı-ayrılıqda müraciət və problemləri dinlənilib. Qeyd edilib ki, hazırda qəsəbədə yollar yenidən qurulur, içməli su mənbələrindən yeni xətlər çəkilir, abadlaşdırma işləri görülür. Sakinlərin üzləşdiyi digər problemlər də aidiyyəti dövlət qurumları ilə birlikdə araşdırılıb qanunvericilik çərçivəsində həll olunacaq.

Qeyd edək ki, Cəhri qəsəbəsini Gülşənabad, Payız, Aşağı Buzqov, Yuxarı Buzqov və Gərməçataq kəndləri ilə birləşdirən qəsəbənin əsas avtomobil yolunda yenidənqurma işləri davam etdirilir, yeni asfalt örtüyü verilir. 2 zolaqdan ibarət olan əsas yolla yanaşı, ətraf məhəllələr də abadlaşdırılır, yollar asfaltlanır. Görüş zamanı sakinlər görülən işlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

Ardı 6-cı səhifədə

Qabah kəndində keçirilən görüşdə isə 56 kənd sakininin şikayəti dinlənilib, 4 sakinin yazılı şikayəti isə baxılması üçün götürülüb, bütün müraciətlər protokollaşdırılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli avqust ayının sonlarında Şərur rayonunun Çərçiboğan kəndində də olub, sakinlərlə görüşüb, onların müraciətlərini dinləyib. Görüşdə 41 kənd sakininin şikayəti dinlənilib, bütün müraciətlər protokollaşdırılıb.

### Türk dünyası Zəfər tarixini qürurla qeyd edir

1920-ci ildə Birinci Dünya müharibəsində ağır məğlubiyyətə düçar olan Osmanlı Türkiyəsini bir çox Qərb dövlətləri imzalanmış bir müqavilə ilə tamamilə parçalamaq istəyinə qarşı türk xalqının öndəri Mustafa Kamal Atatürkün başçılığı ilə aparılan şərəfli mübarizə birgə düşmənlərə qarşı savaşa qalxdı, müharibə apardı, nəticədə, çoxlu şəhidlər verildi, ancaq türk xalqı böyük Zəfər çaldı. Beləliklə, Türkiyə əleyhdarları olan dövlətlər 1922-ci ildə qəbul etdikləri qərarlardan imtina etməsi Türkiyə Cümhuriyyəti və Türkiyənin Silahlı Qüvvələri yaranması ilə nəticələndi. Ümummilli Liderimizin layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan-Türkiyə birliyi daim yüksələn xətlə inkişaf edir. Avqustun 30-da Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə konsulluğun iqamətgahında tədbir keçirilib.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Zəfər Bayramı münasibətilə təbriklərini çatdırıb, dövlət başçılarımızın ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərini daha yüksək səviyyədə inkişaf etdirdiyini vurğulayıblar. Bildirilib ki, bir millət, iki dövlət və tək yumruq müstəvisində inkişaf edən Azərbaycan-Türkiyə münasibətləri bölgədə yeni reallıqlar yaradıb.

***Naxçıvan ölkə başçısının müəyyənləşdirdiyi siyasət üzrə inkişaf yolu ilə irəliləyir. Bu inkişafın arxasında isə Azərbaycan Respublikası Prezidentinin birbaşa rəhbərliyi ilə reallaşan genişmiqyaslı işlər durur. Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamla təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” isə muxtar respublikanın iqtisadi inkişaf potensialı və uzunmüddətli iqtisadi perspektivləri əsasında hazırlanmaqla yeni iqtisadi inkişaf strategiyasını müəyyənləşdirmişdir. Bəhs olunan Sərəncamda da deyildiyi kimi: “Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Bu isə, öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur”.***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir

*Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, həm də prokurorluq işçilərinin fəaliyyətinə verilən qiymət kimi əhəmiyyətlidir.*

Azərbaycanda prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Ulu Öndərimiz deyirdi ki: ***“Mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram”.*** Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

***“Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir”***, – deyən Ulu Öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu Qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ulu Öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli Liderin ***“Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız”*** ifadələrini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu Öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: ***“Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır”.***



Günümüzün prokurorluq orqanları qarşımızda duran mühüm vəzifələrin əhəmiyyətini anlayaraq “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə səmərəliliyə və operativliyə nail olunmasını, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təminini diqqət mərkəzində saxlamaqla işin keyfiyyətcə yeni mərhələyə qalxmasını və daha çevik yerinə yetirilməsini əsas tələblər kimi müəyyənləşdirmişdir.

Prokurorluq orqanlarının ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq qarşıda duran vəzifələrin icrasını təmin etmək məqsədilə fəaliyyətinin çağdaş dövrün ictimai münasibətlərinə uyğun təkmilləşdirilməsi məqsədinə xidmət edən “Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası” bu sahədə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl və mərhələli tədbirləri müəyyən etmişdir.

“Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı” Prokurorluq orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi sahəsində tədbirləri zəruri etmişdir.

Prokurorluq orqanlarının fəaliyyətində mühüm yer tutan sahələrdən biri də müraciətlərə baxılması və vətəndaşların qəbulu işidir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosialyönümlü dövlət siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət və qayğı göstərilməklə, daxil olan müraciətlərə həssaslıqla yanaşılaraq bu sahədə qanunvericiliyin tələblərinə tam və dəqiq əməl edilməklə həyata keçirilir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət və müasir dövrün reallıqlarına uyğun islahatlar ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına, cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə, dövlət idarəçilik mexanizminin təkmilləşdirilməsinə xidmət edib. Dövlət başçısının birbaşa diqqət və qayğısı nəticəsində ölkəmizdə digər qurum və sahələrlə yanaşı, Azərbaycan Prokurorluğu orqanlarında da idarəçiliyin təkmilləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində operativliyin təmin edilməsi istiqamətində nəzərəçarpacaq dəyişikliklər müşahidə edilməkdədir.

Məhz bu sahədə görülən işlərin bir mərhələsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun müasir tələblərə cavab verən yeni strukturu təsdiq edilib və bundan sonra baş prokuroru Kamran Əliyev tərəfindən Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun da yeni strukturu formalaşdırılıb.

Bu gün ölkəmizin digər bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası da ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli inkişaf strategiyası ilə əhatə olunub və insanların hüquqlarının qorunması, sosial rifahının yüksəldilməsi istiqamətində əməli addımlar atılmaqdadır. Naxçıvan Muxtar Respublikası Prokurorluğu da muxtar respublikada insanların hüquq və azadlıqlarını qorumaqla, daxil olan müraciətlərə obyektiv və operativ şəkildə baxıb qanuni və əsaslı qərarlar qəbul etməklə, baş vermiş cinayət hadisələrinin vaxtında qeydə alınmasını, qanunlara riayət edilməsini təmin etməklə, möhtərəm Prezident tərəfindən həyata keçirilən davamlı inkişafa, məqsədyönlü və uğurlu islahatlara öz töhfəsini verməlidir. Bunun üçün muxtar respublika prokurorluğu orqanlarının əməkdaşları vətəndaşların müraciətlərinə baxılması, cinayət xarakterli müraciətlərin araşdırılması, törədilmiş hər bir əmələ obyektiv hüquqi qiymətin verilməsi, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarətin gücləndirilməsi istiqamətində öz fəaliyyətlərini daha da təkmilləşdirir və bu sahədə Azərbaycan Respublikasının qanunlarını, aidiyyəti digər normativ aktların tələblərini, Azərbaycan Respublikası Baş prokurorunun əmr, göstəriş və tapşırıqlarını rəhbər tuturlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmişdir. “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət, mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin prokurorluq orqanlarına işə qəbulun müsabiqə yolu ilə keçirilməsi kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi: ***“Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir”.***

**Sənan PAŞAYEV**
***Naxçıvan Muxtar Respublikasının prokuroru, baş ədliyyə müşaviri***

### İtmişdir

Babək rayonunun Kültəpə kəndində yaşamış Qasımov Zəfər Fətulla oğlunun adına olan JN-088A inventar nömrəli, 10308028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yuxarı Aralıq kənd sakini Zülfüqarov Məhəmməd Məhəmmədəli oğlunun adına olan JN-197A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 581